# Xan Altay ucalığı

*Sabir RÜSTƏMXANLI*
**Xalq şairi, millət vəkili**

**(Əvvəli şənbə sayımızda)**

Dağlıq Altayda böyük dağ aşırımlarında yay yarmarkaları təşkil olunur. Burda hər cür dağ neməti tapa bilərsən: müalicəvi otlardan tutmuş, növbənöv xalq sənəti ürünlərinədək. Bəzi yarmarkalarda Monqolustandan gətirilmiş əşyalar da var. Ancaq altaylılar üçün bu, əsas deyil, əksinə yarmarkaların aşırımların qutsal havasını pozmasına əsəbiləşirlər. Çünki aşırımlarda qonaqlar qarşılanır, bizim ocaqlarda olduğu kimi ağaclara parşa bağlanır, qayçılar çalıb-oxuyur.

Onquday aymağı ərazisinə girərkən Semi aşırımında (altaylılar Semibaşı deyir) bizi icraiyyə komitəsinin sədri Eduard Tekenov başda olmaqla bir heyət qarşılayır. Qımızla, üstünə əyirdək, qurud və sair yerli bərəkətlərin düzüldüyü süfrəylə və ən əsası şeir və musiqi ilə... Açıq havada bir xanım bizi salamlayır, gəlişimizə məmnuniyyət duyğusuyla yazılmış bir şeir oxuyur. Elə danışır ki, sanki məni çoxdan tanıyır. Bu, əlbəttə Dimanın işləridir. Belə rəsmiyyət və təmtəraq məni sıxır, lakin adət-ənənəyə və göstərilən diqqətə minnətdar olmaqdan, cavab verməkdən başqa yol yoxdur. Gənc qayçı qopuzunu dilləndirir və bu rəsmi qarşılanma havasına musiqinin əbədi nəfəsi qatışır. Qarşılayanların arasında rayon qəzetinin redaktoru, Mədəniyyət evinin müdiri, bizi kımıza, Dağlıq Altay nemətlərinə qonaq edən milli geyimli xanımlar var.

Dəniz səviyyəsindən 1717 metr hündürlükdə olan aşırımdan Sarilik dağlarının gözəl mənzərəsi açılır. Burda Dağlıq Altayın Rusiya tərkibinə qatılmasının ildönümü münasibətilə abidə qoyulub. Onun yanından keçib Sidr meşəsinə girir və parça bağlanmış ağacların birini seçib biz də ağ lentləri budaqlara bağlayırıq...

Niyə Sidr ağacı belə əziz tutulur? Bu barədə altaylarda maraqlı bir əfsanə var. Bir dəfə tayqada yorulub əldən düşmüş bir ovçu dincəlmək istəyir və təbii ki, bu məqsədlə meşənin ən böyük, qocaman ağacının altını seçir. Ağacın budaqları yerə kimi əyilib, çadıra dönüb. İllər uzunu gövdəsinin mamırı tökülüb və altında qalın və yumşaq bir dişəyə dönüb. Elə rahatdır ki, ovçu uzanan kimi dərin yuxuya gedir. Ertəsi gün tam dincəlmiş halda oyananda qəribə bir söhbət eşidir. Qulaq verib görür ki, danışan altında yatdığı sidr ağacıdır, sızıldaya-sızıldaya qocaldığından, daha dayana bilmədiyindən gileylənir. Cavan ağac niyə yıxılmırsan, axı sən dünən də belə ağrıyır və şikayətlənirdin deyir. Qocaman sidr ağacı necə yıxılım, yıxıla bilmirəm, axı altımda insan yatıb deyir. Ovçu qalxıb qocaman ağaca bərk-bərk sarılıb ona minnətdarlığını bildirir. O kənara çəkilən kimi ağac dərindən köks ötürüb torpağa sərilir...

+++

Günorta yeməyi üçün geniş vadinin ortasında, İpək yolu adlanan yolüstü bir restorana dönürük. Bizi restoranın sahibi qarşılayır. Sizin yerlinizdir deyirlər. Həsən çoxdan çıxmışam Bakıdan, Azərbaycanla əlaqələrim üzülüb. Ancaq təsadüfən atam da burdadır. O sizi daha yaxşı tanıyır. Gəlişinizi deyəndə, "o xalq adamıdır, şairimizdir, ona yaxşı qulluq elə!" - dedi. "Sağ olsun-dedim,-salamımı çatdır. Bura sənindirmi?" "Hə özüm tikmişəm!" "Lap yaxşı. Qulluq elə, həm də mənim hesabıma!" Etiraz edir: "Elə şey olar! Bu mənim qonaqlığımdır, sizin şərəfinizə!. Bunlara da demişəm!" Sonra öz saldığı bağı, çay qırağında tikdiyi kotecləri göstərib, nə vaxt dincəlmək istəsəniz, buyurun, burda hər şəraitim var!" deyir. Taleyimiz belədir. Bu uzaq yollarda da Vətən bizimlədir...

Dağların arasında hava çox istidir. Getdiyimiz yol da hər yerdə dərin dərələrdən keçir..

Bu bölgənin özəlliklərindən biri arxeoloji abidələrin, kurqanların bolluğudur. Öncə Çar kurqana və ya başqa adla Başadar kurqanına baxırıq. Azərbaycandakı torpaq kurqanlardan fərqli olaraq burda dəfn edilənlərin üstünü daşlarla örtüblər. Çar kurqanı çoxdan araşdırılıb. Bizimlə bərabər kurqana turistlər də baxır. Brontay nəyə görəsə onlardan biriylə mübahisə edir. Sonra məlum olur ki, mübahisə etdiyi tarixçi alimdir və Bolqarıstandan gəlib. Brontay kurqanların türklərə məxsusluğu, skiflərin türklüyü və indiki slavyan bolqarların kökünün türklərə bağlı olması ilə bağlı tarixçi alimə ağıllı-başlı bir "dərs" verir. Sonda bolqar xristian olduğunu boynuna almır, mən tanrıçıyam deyir. Əlaqə saxlayacağımız barədə vədələşib ayrılırıq... Kurqandan azca aralıda bir daş sırası, yaxın dağların ətəklərinə kimi uzanan bir daş sıralaması, balbal karvanı var. Eynilə Tunyuquk abidəsinin yanında, Monqolustanda belə bir daş sırası görmüşdüm. Orda bu daşların Tunyuqukun öz qardaşının intiqamını almaq üçün öldürdüyü düşmənlərin sayını bildirmək üçün qoyulduğunu yazmışdım. Bəs burda? Bu daşlar nəyin əlamətidir. Yoxsa təbiətin öz düzgüsüdür?

Altay kurqanlarının tapıntıları ümumi skif mədəniyyəti adına Ermitajda nümayiş etdirilir. Dünyada məşhur oan, daha doğrusu bugünədək gəlib çatmış ən qədim xalça da Pazırık kurqanlardan tapılıb. Persiya adıyla təqdim olunsa da onun bir türk-Azərbaycan xalçası olması şəksizdir. Çünki o vaxt İran-Persiya ərazisində bu tipli xalçalar yalnız Azərbaycanda toxuna bilərdi...

Pazırık tuvimlərin dilində kurqan deməkdir və bütövlükdə kurqan mədəniyyətini ifadə edən bir sözdür.

+++

Həmin gün çox sərt yolu olan, qayaların ovcunda yuvaya bənzər Çike-Taman adlı bir aşırımda da dayandıq, çay içdik. Brontay çayxananın adını göstərdi: Turan! Bəli Turan torpağında olduğumuz hər addımda hiss olunur. Çayxana adları bu gün var, sabah yoxdur, amma bu yerin-göyün, dağın-daşın, çayların, göllərin, yolların və mənzillərin adı əbədidir. Altay xalqının özü kimi...

Onduqay aymağına gəlməyimizin bir səbəbi də buranın Brontayın, Diman Belekovun vətəni olmalarıdır. Yolüstü Brontay doğulduğu doğma Kuladı kəndini göstərir.

Sonra Dimanın alma, ərik bağları və sanki dünyadan qopub dağlar arasında təklənməsi ilə yadımda qalan kəndlərindən də keçib getdik. Həmin gün 450 kilometrdən artıq yol keçdik. Gördüyümüz yerlər biri-birindən maraqlıydı. Ən unudulmaz mənzərələrdən biri Katunla Çuy çaylarının birləşdiyi yerdi. Eynilə Arazla Kürün birləşdiyi kimi Çuyun ağ-bulanıq suları Katının içində bir xeyli qarışmadan axır, sonra onun da rəngini dəyişir, ancaq yollar boyu Katun o qədər göz yaşı kimi dupduru suyu olan çayları qoynuna alır ki, bu bulanıqlıqdan əsər-əlamət qalmır. Dağlıq Altayda dağ çayı var və onun da çoxu Katuna qarışır...

Bizi müşayiət edən tarixçi Çuy çayının o üzünü göstərir. Qarşı yaxada bir silsilə, sonra daha uca, qayalı və sərt bir silsilə:

"O arxa dağların arasında mağaralar var. Türkün qorunduğu yer oradır. Ötükeni, yəni türk soyunun sonuncu fərdini Qurd nənəmizin-Asinanın qoruyub çoxaltdığı yeri Monqolustanda axtarırlar, tapa bilmirlər. Tapa bilməzlər də! Türkün beşiyini monqol düzlərində axtarmaq əbəsdir. O burdadır, Altay dağlarının qoynunda, əlçatmazlığında!"-deyir.

Çuyla Katunun birləşdiyi yerdə, bələdçinin göstərdiyi dağın ətəyiylə yol çəkilir. "Bəlkə gedək!" deyirəm. "Vaxtımız olsa gedərdik! Amma yolu çətindir". Gülə-gülə: "Mən köhnə dağçıyam!-deyirəm.

İki çayın birləşdiyi yerdə, Katunun sol sahilindəki yastanda nəhəng bir bayraq abidəsinin ucaldılması nəzərdə tutulur. Yol da ona görə çəkilir. Həmin bayraq türklərin bu dağların bağrından qopduğunun rəmzi olacaq. Bu yerlər mağaraları, kurqanları, qayaüstü yazıları ilə məşhurdur. Bunların hamısı, Altay boğaz səsi və qayları-mahnılarıyla bərabər, Diman Belekovun təşəbbüsü ilə YUNESKO-nun qorunan dəyərlər siyahısına salınmışdır.

Dağlıq Altayın ən böyük mənəvi xəzinələrindən biri qayaüstü yazılardır: Biçiktu (yazılı qaya), Kalpakdaş və s. Həmin gün biz Kalpakdaşa baxa bildik. Böyük ərazini tutan yastı qayalardakı yazıların əsatirlərlə, qədim inanc və kosmik düşüncəylə yozula bilən görüntülərini bir gəlişdə gəzib-görüb yadda saxlamaq çətindir. İstidə qızmış qayaların həniri adamı vurur. Buna baxmayaraq bizi qarşılayan dəstənin içində gəlmiş tarixçi gənclə iki saat boyu, bir qayadan başqasına adlayır, bu açıq qalereyaya baxır və onların yozumunu dinləyirəm...

Ancaq bu qayaüstü yazıları hər yerdə bir vəhşilik və düşmənçilik izləyir. Hər yerdə yazıların, rəsmlərin ən qiymətlilərinin və qədimlərinin üstündən nadan əlləriylə adlar cızılıb. Qayanın içinə işləyən qalın hərflərlə: Nataşa, Nikolay, Vasya və s. Məncə, bu təsadüfi deyil və cahillikdən, kefli başla edilmir, bu vəhşilik də deyil; bu qəsd və düşmənçilikdir.

Kalpak daşın ətrafındakı seyrək meşəli, qayalı dağlar bizim Böyük Qafqazı xatırladır. Burda vadi genişdir. Yamaclar nəhəng terraslar kimi doğram-doğramdır. Bəzi yerlərdə qədim arx yerləri və bələdçimizin dediyi kimi "türk qalaları"nın qalıqları görünür.

Arada Altayın qüruru və rəmzi olan Üç Sumer zirvələrini salamlamağa imkan da tapırıq.

Bu qədər uzun yol gedəndən, qayaüstü yazılara baxandan sonra yorğun-arğın, nisbətən balaca bir çayın Katuna töküldüyü yerdə salınmış istirahət zonasına gəldik. Brontay "Ədəbiyyat günlərində qonaqlara burda, eləcə açıq havada, çəmənlərin üstündə yemək vermişdik, ətrafda heç bir tikili, aul yox idi. Bu düşərgə sonralar, Dimanla mənim ideyamla tikildi"-deyir. Niyə məhz buranı seçmisiniz?"- soruşuram. İzah edir ki, bu çay qovşağının xüsusi bir mikroiqlimi var, həm də tarixi yerdir, ətrafı gözəldir. Katuna qovuşan çayın üstündəki asma körpüdən adlayıb bizim üçün ayrılmış yurdda yerləşirik. Birinci Eduard, vaxtilə milli güləş üzrə respublika çempionu olmuş iri cüssəli ev sahibi girir çaya və məni də dəvət edir: "Soyuq olmağına baxma, sonra çıxmaq istəməyəcəksən!"-deyir. Gurultuyla axan, bir az ehtiyatsızlıq eləsən səni də alıb apara bilən bumbuz dağ çayı bir anda yorğunluğu yudu. Bundan sonra aclığımız yada düşdü. Qayaların altındakı köşkdə gecə saat 2-yə kimi oturduq. Kimsə yatmaq istəmir. Sibir türklərinin tarixi və taleyindən, əlaqələrimizi möhkəmlətmək yollarından, türk tarixindən danışdıq. Eduardın Azərbaycan haqqında da xatirələri var. Gəncədə, Goranda, Mingəçevirdə əsgər olub. Dağlıq Altay, tuva, xakas milli güləşinin tarixindən maraqlı söhbət edir. Bu barədə kitab yazıb.

Güləş yarışları yenə keçirilir. Monqollar da qonaq gəlir.

Altay dili ərəb, fars, Avropa sözlərinin qarışmadığı təmiz dildir. Ara-sıra bizim arxaik sayıb işlətmədiyimiz sözlər bir-birimizi daha yaxşı anlamağımıza kömək edir.

Bütün gecə söhbətlərimizin bir musiqi müşaiyətçisi var. Altay mahnılarının coxu süjetlidir. Təbiət, at, it bu mahnıların iştirakçısıdır. At ayaqlarının səsi, qartalların qıyıltısı...Qayçı azalıbmış, indi gənclərdə xalq musiqisinə maraq artır. Qayçı gecə boyu bir neçə musiqi alətində çalır. Oxuyur, mahnının içində gülməli dialoqlar aparır. İkitelli kopuz təbiətin bütün səslərini canlandıra bilir.

Brontayın da, Eduardın da arzusu budur ki, türklər bu diyara tez-tez gəlib getsinlər, onsuz da turist axını ildən-ilə artır, belə getsə təbiətin ilkin gözəlliyini qorumaq çətin olacaq. "Qoy Altay yenə türklüyün mərkəzi olsun; bir qoruş yerinə, bütün türk xalqlarının tarix yaddaşı yerinə, milli varlıqlarını qutlama yerinə, bir türk ocağına çevrilsin. Qorunsun. Bu axşam Brontay bəyin Sibir türklərinin ümumi tarixi və mədəniyyəti haqda geniş ensiklopedik bilik sahibi olmasına sevindim. Onun və Sergeyin Sakaninin inkişafı ilə bağlı söhbətləri bu bölgədə türklüyün yeni intibahından xəbər verir.

...Köhnə vərdişlə yuxudan tez oyanmışam. Bu dəfə Eduardı gözləmədən çaya baş vurdum. Soyuq su adamın bədənini dağların dözümü və enerjisiylə doldurur.

Sabah erkəndən yenə iri qazan ocağın üstündədir. Altaylılar səhərlərini də ətlə açırlar. Əti iri parçalar halında, sümükləri qırmadan qazana atıb bişirirlər. Çörək az yeyirlər. Daha çox qızardılmış xırda çörək parçaları, mantı qoyurlar süfrəyə. Uyğurlarda görüb bəyəndiyim samza və bal da əskik olmur.

Eduard səhər yeməyi zamanı torpaqlarının azlığından, qışlaqlarının Altay diyarında qaldığına görə mal-qara, qoyun və maral sürülərini qış aylarında saxlamağa yerin çatışmadığından, Altay xalqının halal torpaqlarının əllərindən çıxdığından gileylənir. Başımı qaldırıb ətəyində oturduğumuz qayalıqlara baxıram. Ətəyində yox, altında deməliyəm, çünki qayalar qanad kimi üstümüzə gərilib, azca çırpılsa nəhəng daş yığınlarının altında qalarıq.

Eduardla vidalaşıb Ust-Kan aymağına üz tutduq.

+++

Aymaqlarda keçirdiyimiz günlərin hər birinin öz gözəlliyi və unudulmaz yönləri vardı.

Yenə yolda gözləyirlər bizi. Ust Kan (Qan ağzı) rayon icra hakimiyyəti başçısı Qriqori Nikolayeviç Pilkin, adı çaşdırmasın, tərtəmiz altaylıdır; yüksək mədəniyyətli, təcrübəli, söhbətcil bir adamdır. Köhnə dost kimi qarşıladı məni.



V.M. Şukşin

Yenə qonağa həsr olunmuş şeir səslənir:

**"Göz yetməyən uzaqlıqdan gəldiniz,**
**əziz qonaq.**
**Atla çatmaq olmayan yerdən gəldiniz,**
**əziz qonaq.**
**Yolunuz açıq olsun. Göydən gələn**
**Tanrı nemətlərinə qonaq olun,**
**əziz qonaq.**
**Bizim ağartışdan yeyin ki,**
**bərəkətimiz artıq olsun..."**

Altayın həyatını bir il öncə dəyişmiş məşhur qayçıçı Aleksey Kalkinin oğlu da qarşılayanlar arasındadır. Atasının yolunu o davam etdirir.

Yenə aşırımda ağaclara lent bağlayırıq. Sonra göz önündə seyrək meşəli, bol otlu geniş bir vadi açılır. Burda vaxtilə Altayın ən böyük qoyunçuluq təsərrüfatı olub, 90 min qoyun saxlayıblar.

Öncə Ust Kan muzeyinə baş çəkirik. Muzey böyük olmasa da altaylıların qədim mədəniyyəti, yaşayış tərzi, geyim-keçimi, məişəti haqqında təsəvvür yaradır... Muzeyin maraqlı yönlərindən biri burda tez-tez məktəblilərin rəsm sərgilərinin, bəzən də ayrıca bir gənc rəssamın sərgisinin keçirilməsidir. Belə sərgilərə maraq böyükdür və uşaqları muzeyə cəlb edir. Burda Altayda çox rast gəlinən və bir-birini təkrar etməyə daşbaba örnəkləri də var. Yadıma Ağdamda Şahbulağ altındakı daşbaba düşür. İndi yəqin ki, ermənilər Pazırık xalçası kimi onu da öz adlarına çıxarırlar. Yəqin imkanları olsa bu Altay heykəllərini də erməniləşdirərlər... Muzeyin maraqlı tərəflərindən biri də burda yaxın dövrlərə aid olan eksponatlardır. Məsələn, müharibə dövrünün məktubları... Bizdə kəndlərimizdə nə qədər belə əhəmiyyətli və millətin ruhuna, taleyinə işıq salan yazılar gərəksiz bir şey kimi atılıb gedib...

Muzeydən sonra Altay Respublikasının turistləri ən çox cəlb edən tarixi guşələrindən birinə - Denisov mağarasına gedirik. Dünənki istidən sonra hava birdənbirə sərinləşib, yağış çiləyir. Yol Dağlıq Altayda gördüyüm ən geniş çöllükdən, seyrək ağaclı, parkabənzər meşələrdən, Altay, rus, qazax kəndlərindən keçir. Altay dağlarına gələn yolun biri də budur. Vaxtilə N.K. Rerixin Altayı öyrənən ekspedisiyası da bu yoldan keçib. Həmin ekspedisiyanın üzvlərindən biri qeydlərində yazırdı ki, yol və mənzərə heyranedicidir, Rerixinin xanımı mavi, çəhrayı, sarı, al çiçəklərin xalısını görəndə ağlamaq dərəcəsinə gəlmişdi.

Altayların Ayu Daş dedikləri rəsmi yazılarda Denisov mağarası olub və yerlilərin də təəccübləndiyi bir şəkildə Altay sərhəddinin içindən çölünə adladılıb. Bələdçimizə bir rus xanım da qoşulur. Dik pillələrlə mağaraya qalxırıq. Mağaranın girişi nəhəng bir ayı ağzına bənzəyir. Cəmi iki salondan ibarətdir. Mağara deyiləndə mənim yadıma sonuncu dəfə Türkiyədə, Tokatda gördüyüm mağara düşür. Dar girişdən sonra bir tunellər labirintinə düşürsən. Hələ çoxunun sonunadək gedə bilməyiblər. Sonradan özəl tikilmiş daş pillələr sanki yerin mərkəzinə endirir. Ən dibdə də yeraltı bir göl. Yerin üstündəkindən solğun olmayan yeraltı aləm, qeyri-adi rənglər dünyası xatirənə əbədilik həkk olunur. Onunla müqayisədə Denisov mağarası adi bir kahadır. Ancaq buranın dəyəri elmi bilgilərindədir. Burda üst-üstə neçə mədəniyyət qatı, ən azı 300 min ilin insan izləri var. Halbuki bu araşdırmalara qədər bu izlərin yaşı cəmi 50 min il sayılırdı. Altaylılara görə nə vaxtsa bu mağarada nəhəng bir Qara Şaman yaşayıb və o istədiyi zaman ayıya çevrilə və bütün ətraf əhalini qorxu altında saxlaya bilirmiş...



**Altay respublikasının Xalq yazıçısı Brontay Bedyurovla birgə**

+++

Geri dönərkən Turattı adlı qazax kəndində dayanırıq. Kənd icra nümayəndəsi Tamara bacarıqlı bir qadındır. İkinci Dünya müharibəsində bu kəndin yetişdirdiyi dörd gənc Sovet İttifaqı Qəhrəmanı olub. Kəndin içində qoyulan abidələrini ziyarət edirik. Şəhid məzarı, düşmənlə savaşda həyatını qurban vermiş hər bir gəncin xatirəsi hörmətəlayiqdir...

Abidənin yanında məscid tikilib. Ancaq görünür qapısı çoxdan açılmayıb və yolunu ot basıb. Yerlilərdən kimsə deyir ki, bu kənddə bir azərbaycanlı da yaşayır. İcra nümayəndəsi öyrənir. Evi kəndin aşağı başındadır. Bir qazax qızıyla evlənib, Novosibirskdən gəlib, burda ev alıb. Ancaq görüşə bilmədik. Harasa gediblər.

Vidalaşıb aymağ mərkəzinə qayıdırıq.

+++

Yenə bir dağ ətəyindəki istirahət və ya turist mərkəzində qalır və gecəyarısına kimi icra başçısı Pilkinlə söhbət edirik.

Bu aymağın geniş otlaqları var. Əsasən heyvandarlıqla məşğuldurlar.

İcra başçısı yerli adət-ənənələrdən danışır. "Məsələn, toyda burnu soyuq olan heyvan kəsmirlər. Qoyun olmaz. At, cöngə kəsilər. Gəlin bəy evinə bir hörüklə gəlir. Bəy evində hörüyünü ikiyə ayırırlar.

Qapılar bağlanmır. Yolla keçən ac olsa evə dönüb bir şey yeyib gedə bilər. Sonra ev sahibindən üzr istəmir, əksinə ev sahibi üzr istəyir ki, bağışla evdə olub sənə qulluq edə bilməmişəm. Ovçular haqqında maraqlı əhvalatlar danışır.

Rusiyadan ovçular gəlir. Yerlilərdən ovlamağa nə var deyə soruşurlar. "Fildən, dovşandan başqa hər şey"deyə cavab verirlər. Ovçular meşəyə girən kimi qarşılarına Altay öküzü, sonra at çıxır. Ov heyvanı sayıb vururlar. Camaat yığışır ki, siz belə ovçuluğu elə evinizdə də eləyə bilərdiniz..."

Gecə yayın ortası üçün gözlənilməz bir leysan yağış yağır. Yaz yağışına bənzər bir yağış.

Ertəsi gün, ayın 23-də saat 11-də aymağın Mərkəzi Kitabxanasında mədəniyyət işçiləri, kitabxanaçılar və müəllimlərlə görüşümüz var. Brontaya bir saata yekunlaşdıraq deyirəm. İnanma, deyir, gündə əllərinə belə fürsət düşmür. Görüşü icra başçısı Pilkin açdı, çox səmimi bir çıxış elədi. Onun və sonrakı danışanların çıxışlarında diqqətimi çəkən və xoş təsir bağışlayan boş, gəlişigözəl söz deməmələriydi. Bəlli oldu ki, internetə girib mənimlə bağlı nə varsa gözdən keçiriblər. Bəzi kitablarımın ruscaya tərcümələrini də oxumuşdular. Buna görə suallar da yerliyataqlıydı, maraqlıydı. Məsələn, kitabxananın müdiri yarızarafat, yarıciddi soruşdu: "Siz kitabınızda yazırsınız ki, Şimali Azərbaycan bir qartala bənzəyir, Bakı onun başıdır. Bəs ürəyi haradır. Ürəyimdən keçdi ki, ürək Qarabağdır. Ancaq bu sual daha lakonik və şux cavab tələb edirdi. Dedim: Azərbaycanın ürəyi mənəm. Sizin qarşınızda oturmuşam... Hər bir şair vətəninin canlı ruhu olmalıdır.

Çox maraqlı və səmimi görüş oldu. Sonra yerli musiqiçilərin yığcam konsertini dinlədik. Nə qədər tələssək də kitabxanaçı qızlar, bu yeməkləri evdə bişirib gətirmişik deyə, bizi qonaq eləmədən buraxmadılar.

Hara gediriksə Sergeyin ustalığı yolları qısaldır. Axşamüstü Tursibdəydik. "Gedənədək sizə ehtiyacım olmayacaq,"-deyə onlarla vidalaşıram.

+++

Əlimdəki yazıya o qədər bağlanmışdım ki, hətta Katun çayının sahilindəki narın qumlu çimərliyə, velosiped, at kirayə verilən yerlərə getmək həvəsimi boğur, səhər otaqda Altay balıyla çay içir, gün ərzində cəmi bir dəfə, axşam saat 5-də eyvanı çaya açılan restoranda, bu restoranı tikənlərin ağacla işləmək məharətinə və ağcaqayınların zərif qız saçları kimi eyvana və çayın üstünə sallanan saçaqlı budaqlarına tamaşa edə-edə çol heyvanlarının ətindən hazırlanmış yüngül bir yemək yeyir, üstündən bir bardaq soyuq kefir içib yenidən otağıma, daha doğrusu açıq eyvana qayıdıram. Katun çayının səsində bir dinclik və uşaqlıq xatirəsi var. Yel əsəndə bu səsə şam ağaclarının kədərli xışıltısı da qoşulur. Bu yay isti keçdiyindən meşələrdə kəpənəklər və pərvanələr artıb. Gecələr eyvanın işığına uçuşur, sanki işığa pərdə çəkir və məni bilgisayarımı da götürüb otağa keçməyə məcbur edirlər. Hava tez işıqlanır, saat 4-5 arasında bu mələk cildli yarpaq qatilləri yoxa çıxır və mən də qayıdıram açıq havaya..

+++

Altaya gəlib Marallıqlara getməmək, şıtğa maral buynuzunun vannasına girməmək günahdır. Yolun yorğunluğunu çıxarmaq üçün elə həmin axşam yaxın Marallıqların birinə getdim. İki qadın işləyir: Avqusta, Asta. Azərbaycandan xeyli adam tanıyırlar. Avqusta "Azərbaycandan bir deputat gəlmişdi bura, deyir,- hər dəfə onu görəndə ağlayırdım, elə bil atamı görürdüm. Yüzdəyüz atamın sifətiydi sifəti. Bu da doğmalığın bir əlamətidir...

Ayrılanda zarafat edirəm: "Mən yazıçıyam. Qayıdanda yazacağam. Dağlıq Altayda Marallığa getdim, cəmi iki maral gördüm". Gülüşürlər. "Minə yaxın maralımız var. İndi, yuxarıda, yaylaqdadır" deyirlər. Bu zarafat bəs edir ki, hər axşam orda məni növbədənkənar, gülərüzlə, xüsusi qayğıyla qəbul eləsinlər...

Nə qədər arzulasan da, təkbaşına qalmaq o qədər də asan deyil. Vaxtilə Bakıda qonağımız olmuş Altayın tanınmış ifaçısı İrina Kenzina zəng vurur. "Eşitmişəm, Altaydasınız!-sonra dəqiqləşdirir,-daha doğrusu feysdən oxumuşam. Mənə niyə zəng vurmursunuz?" Bəhanəm var. "Bilirəm, sən buralardan uzaqda yaşayırsan!" "Yox, indi yaxındayam, Çemalda, qardaşlarımın yanına gəlmişəm". " Mən də Çemalda, Tursibdəyəm, -deyirəm. Axşam gözlənilmədən bu dağların iki gözəl ifaçısı və müğənnisi İrina və Jıldız eyvana qalxırlar. Jıldız milliyyətcə şordur. O da Bakıda türkçülük bayramında qonağımız olub. İrina mənim şeirlərimi altaycaya çevirib. İndi də bərabər yeni konsertə hazırlaşırlar.

+++

Altay bir təbiət möcüzəsidir; insanın ağlına gələn bütün doğal gözəlliklərin toplandığı bir yerdir. Sibirin ən uca nöqtəsi olan Üç Sumerdə Kadın-bacı zirvəsindən (hündürlüyü 4506 m) düzənliklərə qovuşan dağ ətəklərinədək, tayqadan tutmuş gül-çiçəyi göz oxşayan yaşıl çöllərədək çeşidli ilğım qurşaqları, dərin dərələrin, bərəkətli vadilərin, şırım-şırım doğradığı saysız dağ silsilələri, meşələr, sıldırım qayalar, tarix sirlərini qoruyan mağaralar, buzlaqlar və buzlaqlardan başlanan möhtəşəm Katun çayı, Baykaldan sonra ən böyük və ən dərin içməli su hövzəsi olan Teles gölü (Altun göl), Çuy, Çuluşman, Arqum, Kökçə, Yaloman, Ursul, Qaraqudur, Karagöl, Kızıltoprak, Aylaquş, Akkaya, Akkeve, Altınkayak, Arça, Batıqran, Balıkça, Barda, Bayak-Çaqan, Balanık, Karabulak, Karaqan, Karasu, Karaözək, Çöksu, Kuba, Komurlu, Kızılkaya, Ortolik, Sarıaçık, Sarıözək, Sıqara, Solvayrı, Sınırlı, Toşta, Tozak, Uzun oyuk, Ulusu, Çapış, Çeliktaş, Ucal, Uçurqa, Cumalı və s. Hər biri bir təbiət abidəsidir. Bu cür tanış, qədim türk adları daşıyan bol sulu, çoşğun dağ çayları Dağlıq Altayın ən böyük sərvətlərindən biridir. Burdakı irili -xırdalı çayların sayı təxminən 20.000-dir. Çaylar boyu gözəl istirahət düşərgələri salınıb; turist axını ildən-ilə artsa da təbiətin ilkin gözəlliyi pozulmazdır.

+++

Altay miflər, nağıllar ölkəsidir; az qala hər dağın, hə gölün, hər çayın, hər bölgənin, hər yolun öz əfsanəsi var. Məsələn, Katun çayının əmələ gəlməsi bir məhəbbət əfsanəsi ilə bağlıdır. Çayın altayca adı "Kadın- Su"dur. Kadın- Su Biy-su ilə, yən Bəy çay ilə qovuşub dünyanın ən böyük çaylarından bir olan Obu əmələ gətirir. Sibirdəki müxtəlif türk ləhcələrində Obun fərqli adları var: Umar, Omar, Amar, Akuar, Ana çay, İlahə çay və s. Bunun bir səbəbi Katunun qədim adının Humay- Böyük ana və ya göylər ilahəsidir.

Qədim türklərdə Kan- Xan erkək hakimdirsə, Nan qadındır və görünür nənə sözü də burdan gəlir.

Sütun kimi yüksələn qayalar, yazılı daşlar, qədim suvarma sisteminin nişanəsi olan arxlar, kurqanlar haqqında da çoxlu əfsanələr var.

Altaylılar elə hesab edirlər ki, uşağı olmayan bir qadın yazılı Kalpak daşda niyyət eləsə, Göy Tanrıdan uşaq diləsə hökmən arzusuna çatacaq.

Şumerin mədəniyyətinin Şərq kökənli olduğunu nəzərə alsaq qədim Mesapatomiyadakı İnanna adlı ilahə də Altay mifologiyası ilə bağlanır, bəlkə Şumer adını da Üç Sumerdən aparmışdılar.

Altay sözünün ilkin variantı Altun Aydır, yəni Qızın Al. Qədim Altaylılar Aya tapınır, Ay təqvimini kullanır, Yeri Ayın övladı sayırdılar. Altaylılar öz ulu atalarına Altay- Kuday ( Xuda) deyirdilər.

**(Ardı 7-ci səh.)**

# Xan Altay ucalığı

*(Əvvəli 4-cü səh.)*

Altay sözü burda yaşayan xalq üçün çox geniş və qutsal anlam daşıyır və bu sözü hətta ölkə mənasında işlədirlər. Birinin hardan olduğu ilə maraqlananda "sən Qazax Altaydansan?" , "Sən Qırğız Altaydansan?"deyə soruşurlar. "Altayca danış" yerinə-altayla deyirlər...

Qeyd etdiyim kimi, Altayda toponimlərin böyük əksəriyyəti qədim türkcədir. Altay dili ərəbcənin, farscanın əli yetişməyən bir uzaqlıqda, öz ilkin saflığını qoruyub saxlamışdır. Altay şeirində alletrasiya və bizim folklorumuzda az-az da olsa rastlaşdığımız kimi, misraların ilk sözlərinin qafiyələnməsi geniş yayılmışdır.

Ünsiyyət zamanı düşünürsən ki, bu sözlərin bəzilərini niyə yenidən dilimizə gətirməyək. Məsələn, altaylılar eynilə Türkiyədə olduğu kimi, "hakim" əvəzinə "yarqıc" deyirlər- məhkəmə yarqıcı, idman yarqıcı və s. Dil kimliyini və gözəlliyini qorumuş onlarla bu cür söz var. Məsələn: alanzı (şübhələnmək), albatı (xalq), andış (zarafat), arbutken (təbiət), acın (hirslənmək), baylık (zənginlik), başkar (rəhbərlik), bilgir (elm), bile (ailə), biçik (kitab), işyal (əməkhaqqı), yayınış (sirr), yakşılaş (salamlaşmaq), yarqanat (sahil), yebren (qədim), yürükçü (ressam), kaykal (təəccüb), qoşançı (müğənni), ün (səs), komusla (komuz çal), çaqış (ağıl), tura və ya dura (ev), uçarsu (şəlalə), ırıs (xoşbəxtlik), əmiçi (həkim) və s...

Altay eposu dünyada məşhurdur. "Maday-Kara" dünya folklorunun şah əsərləriylə bir sırada dayanır...

+++

Yollar boyu Brontay Bedyurovla- Er-Tadruşla- tarixdən, dünya siyasətindən başlamış, etimalogiyaya qədər-dağı arana, aranı dağa daşıyırıq. Şair, publisist, tərcüməçi, ictimai xadim, səmimi insan olan Brontay Moskvada Qorki adına Ədəbiyyat İnstitutunu qurtarıb. Çox gəzib, çox görüb. Kitablarında milli ruh güclüdür, xalq həyatı, adət-ənənələr, Altay tarixi haqqında çox yazır və Oyrot dövrü Altay əfsanələrini, Altay xalqının milli azadlıq mübarizəsi ilə bağlı rəvayətləri ilk dəfə o qələmə alıb. Ekzüperini və yapon lirikasından nümunələri altaycaya çevirib. Rusiya Dillər Akademiyasının akademikidir.

+++

Altayda olduğum sonuncu günlərdə dağların daha bir möcüzəsinin şahidi oldum. Hava birdə-birə soyudu, yağış gəldi və ilk baharda olduğu kimi göy gurultusu dağları silkələməyə başladı. Bu şişirtmə deyil, onu bilirəm ki göy gurultusu və ildırım çaxması haqqında da çoxlu araşdırmalar aparılıb, hətta ıldırımın daha güclü olduğu yerlərin xəritəsi də var. Məncə, Altay o xəritədə ön yerlərdən birində dayanmır, ancaq burdakı kimi göyün parçalanıb yerə töküləcəyi təsəvvürü yaradan güclü şimşək çaxışına heç yerdə rast gəlməmişdim. Uzun müddət eyvanda oturub yayın ortasında bu təbiət möcüzəsinə tamaşa edirəm...Yola düşməzdən əvvəlki gün Diman Belekov nəvəsi ilə birgə vidalaşmağa gəldi. Tursibin həyətində, köşkdə oturub söhbət edirdik. Məni dilə tutub yeməyə aparmaq istəyirdi, ancaq mən neçə gündən bəri davam etdirdiyim rejimi pozmaq niyyətində deyildim. Altay haqqında təəssüratlarımı bölə-bölə, orda olduğum günlərdə eşitdiyim arzu və təklifləri çatdırırdım. Əslində, doğrudan da, Altay Türk dünyasının bir görüş yerinə çevrilə bilər. Ilk Türk Xaqanatının 545-ci ildə yarandığı rəsmiləşdirilsə də, Altayda da gözəl bilirlər ondan öncəki Hun, Skif-Sak imperatorluqları da türklərə məxsus idi. Bunların hamısı Altayla bağlıdır. Yəni hardan başlayırsan başla, tarixin hansı yolundan keçirsənsə keç, Altayın qızıl dağlarından yan keçə bilməzsən. İldən-ilə böyüyən turist axınında Altay təbiətini qorumaq indi əsas qayğılardan birinə çevrilib.

+++

Ertəsi gün tezdən hazırlaşıb Ejerlə Sergeyi gözləyirdim, ancaq qəfildən Brontay döydü qapımı. "Niyə əziyyət çəkmisən" sualıma "Şukşinin ev muzeyinə baxmaq istəyirdin, ora kimi bərabər gedək!"- dedi, -həm də səni "Sibirski Oqni" jurnalının əməkdaşı Yeqor Plitçenko ilə tanış etmək istəyirəm, dostumuzdur..." Mən Yeqora son vaxtlarda "Literaturnaya qəzeta"nın Moskvada yaşayan Azərbaycan şairlərinin şeirlərinə və Azərbaycan folkloruna geniş yer ayrılan layihələrini örnək gətirərək Sibirdə yaşayan azərbaycanlılara diqqəti artırmalarını xahiş etdim.

+++

Tarixi şəxsiyyətlərin heykəlləri, rəssam əliylə yaradılan portretləri, fotoları zamanın axarından qoparılan anların ifadəsidir, ömür okeanından damladır, illər boyu yaşananların xırdaca bir həniri, əsintisidir. İnsanın həyatı boyu keçdiyi yolların, çəkdiyi əzabların, duyduğu sevincin və kədərin bütün mürəkkəb mənzərəsini hansısa donuq şəkil və ya qranit əks etdirə bilər. Buna görə də hər hansı heykəldə yaradılan xarakterin ən ümumi cəhəti ifadə olunur; kimsə orda axtardığını tapır, kimsə tapmır.

Böyük rus yazıçısı Vasili Şukşinin doğma kəndi Srostkada qoyulmuş heykəli də onun ömrünün qısa bir parçasını, bu kəndlə bağlı günlərinin bir görüntüsünü əks etdirir, lakin heykəltaraş onun xarakterini o qədər dəqiqliklə duymuş, təbiətlə, bu yerlərlə bağlılığını, burda keçirdiyi yaşantıları-abidənin ümumi fəlsəfəsi, seçildiyi yer və forması ilə o qədər ustalıqla ifadə etmişdir ki, bu möhtəşəm abidəyə həyəcansız, ürəyin titrəmədən baxa bilmirsən.

Şukşinin anası üçün aldığı, özünün çox az yaşadığı evin yanından ötüb kəndin üstünə, Piket dağına qalxdıq. Maşınları saxlamağa ayrılan meydançada yol bitir, sonra məxmər kimi bir çəmənlik başlayır. Yenicə yağmış yağış çəmənliyə milyonlarla göz bağışlayıb. Elə bilirsən bu gözlərin hamısı sənə baxır. Qotaz bağlamış iri yarpaqlı maral yoncasının tünd qoxusu vurur adamı. Ancaq göz önündə açılan mənzərə fikrini yerdən ayırır, diqqətini - uzaq üfüqlərə doğru çəkir. Birdən elə bilirəm çəmənliyin o başında iri gövdəli bir adam oturub, bu mənzərəyə tamaşa edir. Heykəlin gözəlliyi də elə bundadır. Məşhur yazıçı, kinorejissor, aktyor, Rusiyanın əməkdar incəsənət xadimi, Dövlət və Lenin mükafatı laureatı- yazdığını və çəkdiyini bürokratiya maneələrindən keçirənə-



**Ust Kan aymağında qarşılanma**

cən əldən düşmüş halda doğma kəndə qayıdıb, anasıyla qucaqlaşıb, göz yaşını onun göz yaşına qatdıqdan, qohumlarına baş çəkdikdən sonra dəlicəsinə sevdiyi doğma mənzərəni seyr etmək, saf havadan doyunca udmaq, yaşıllıq dənizində gözlərini dincəltmək üçün kəndin üstündəki dağa qalxıb. Ayaqyalın, baş açıq... bir daşın üstündə oturub. Üzünü çöllərə, göz önündə sonsuz genişlik və yaşıl bir dəniz kimi dalğalanan meşələrə tutub; Dağlıq Altaydan enib Sibirə, ordan böyük dünyaya uzanan Çuy şossesi görünür.

Bu, Şukşindir. Onun öz yazdıqları vurğunu olduğu yurduna- kiçik vətəninə bağlılığının ən gözəl ifadəsidir. "...Və olduqca gözəldir mənim vətənim- Altay: elə ki orda oluram, sanki göylərə yüksəlirəm. Dağlar, dağlar və elə bir genişlik ki, adamın ürəyi sızıldayır. Çox nadir, bənzəri olmayan bir gözəllikdir. Onu təsəvvür etmək imkansızdır. Onunla köksünü doldurmaq da olmur, nə qədər istəsən yenə azdır, ancaq baxasan və bu genişliyin havasını udasan".

"Vətən ...De nədən ürəyimdə bir fikir yaşayır ki, nə vaxtsa mən həmişəlik orda qalacağam. Hə vaxt?"

Yəqin indi oturduğu bu yamacda dəfələrlə buna bənzər düşüncələr keçib ürəyindən.

Bütün ömrü boyu bura can atmışdı, rejissorluqdan, aktyorluqdan əl çəkib, doğma Altaya qayıtmaq, anasının yanında ancaq yazıçılıqla məşğul olmaq istəmişdi.

Ömrünün sonuna yaxın əcnəbi jurnalistə verdiyi müsahibəni oxumuşdum. "Bu yaşımda anladım ki, hər yerə çatmaq olmaz, anladım ki, mənim yerim yazı masasının arxasıdır".

Bu arzusunu məktubla anasına da bildirir:

" Ana, bir xahişim var, mən gəlməmiş, evlə bağlı heç nə düşünməyin, yəni evi (sənin evini nəzərdə tuturam) satmayın. Gələrəm, nə etməli olduğumuzu düşünərikg Bu böyük filmdən sonra kino ilə az məşğul olmağı düşünürəm, lap az, ən yaxşısı yazmaq və evdə olmaqdır... Öz doğma yurdumda yaşayıb işləmək arzusundayam".

Söz yox ki, o öz qonorarıyla, anasına hədiyyə kimi aldığı evə qayıtmağı nəzərdə tuturdu.

Heykəltəraş böyük yazıçının ürəyinin yurd sevgisiylə, Altay dağlarının qutsal ruhu ilə, insanı təmizləyən, ucaldan saf havayla dolduğu yeri seçib.

Elə bilirəm Şukşin deyil, özüməm, kəndin qırağındakı təpədə oturmuşam. Dünyanın bütün alçaqlıqlarının, riyakarlıqlarının, ədalətsizliklərinin içində sıxılan, xıncım-xıncım olan bədənim, haqsızlıqlara üsyan eləyən ürəyim burda yavaş-yavaş dincəlir, torpaq ağrıların ağrısını sorur, hava düşüncələrimi nizama salır. Adətən heykəllər kəndin içində, həyətdə, məktəb önündə, yol qırağında qoyulurg Yox, heç yerdə bu rahatlıq yoxdur. Yazıçının sevdiyi yer buradır. Çünki şəhərlərin biganəlik və qeybət zəhəri yavaş-yavaş kəndin damarlarına da yol tapır, doğmalıq və təmənnasız sevgilər azalır. Öz-özüylə və təbiətlə baş-başa qalmaqdan başqa çarə yoxdur.

Tanış olsaq onu nə qədər dərindən duyduğumu bilərdi. Biz, kənd uşaqları bir-birimizə bənzəyirik. Arada minlərlə kilometr məsafə olsa da! O ana sevgisi də, təbiətə, gözəlliyə, düzlüyə, ədalətə, halal zəhmətə bağlılıq da insanlığın şərtlərindəndir. Burda məsafə və millət, dil fərqi unudulur! Ana sevgisinin, təbiətin və dərdin dili birdir!

Bəlkə elə bu birlik duyğusudur adamları uzaq məsafələrin üstündən bir-birinə bağlayan, məni bura gətirən də qəribə bir "yazıçı həmrəyliyidir". Dağlıq Altayı görmək və köhnə yazıçı dostlarımla görüşmək istəmişdim. Çünki zaman keçir, dünyada xalqları üz-üzə qoyan, insanın həyatını zindana çevirən gərginliklər artır və bəlli olur ki, bu xaosun içində öz mövqeyini dəyişməyən, görülməz sülh elçisi olan, heç bir düşmənçilik siyasətinin sındıra bilmədiyi bir qüvvə var: O da ədəbiyyatdır, qələm sahibləridir.

Şukşinlə görüşə bizi çəkən bu mənəvi qardaşlıq duyğusu idi!

Onun rus ədəbiyyatındakı yerini, Sibirin yetirməsi olan başqa bir məşhur rus yazıçısı Valentin Rasputin dəqiq ifadə etmişdir. "Bu gün həyatımızda namuslu, heç bir havada sınmayan, dəyişilməyən, sənətkar səsi -başdan ayağa yalnız ağrılardan, sevgi qanadlanmalarından və istedadından yoğrulmuş, öz taleyində Rusiyanın bütün iztirablarını daşıyan, onun üçün nəyin gərəkli, nəyin məhvedici olduğunu bilən rus insanı -Vasili Şukşin çatışmır".

Havanın tutqun olmasına baxmayaraq heykəli ziyarətə gələnlər, burdan onun baxmaqdan yorulmadığı genişliklərə baxan, yanında şəkil çəkdirənlər çoxdur.

Adamların əli yalnız ayaq barmaqlarına çatır, şəkil çəkdirəndə bu barmaqlardan o qədər tutublar ki, tuncun rəngi gedib, sanki ayaqlardan uzun yolların tozu təmizlənib.

Mən bilmirəm sağlığında Şukşini bu kənddə nə qədər anlayıblar, nə qədər seviblər, bu kənddə çəkdiyi filmlərə nə qədər yardım ediblər. Ancaq o indi bu kəndin şöhrətinə çevrilib. Ona görə kənd abadlaşdırılır, gəlib-gedənin ayağı kəsilmir. Şukşinin balaca vətəninin adı dillərdə dolaşır. Hər il burda Şukşin bayramı keçirilib.

Yazıçı taleyi belədir. Müqayisə eləmək və bu kövrək mövzuya acılıq qatmaq istəmirəm; əlbəttə böyük ölkənin yazıçısı olmağın üstünlüyünü də bilirəm, lakin bir anlığa onu da düşünürəm ki, görəsən bizdə əsl ədəbiyyata, doğru sözə, xalq ideallarına xidmətdə Şukşinin mənəvi bənzərləri, tale ortaqları olan yazıçılarımızdan, məsələn, İsmayıl Şıxlıya, İsa Muğannaya, Ənvər Məmmədxanlıya, İsi Məlikzadəyə, Sabir Əhmədliyə nə vaxt buna bənzər, daha doğrusu onların öz taleyinə bənzər heykəllər qoyulacaq, ev muzeyləri yaradılacaq. Bir çox heykəllərin, məzarların üstündən doğma yurdumuzun çeşidli qəsəbələrinə, Kür qırağına, dağ-aran torpaqlarımıza addımlamasını görmək istərdik.

Şukşin 1933-cü ildə atası güllələnəndən sonra anasıyla birgə qalmışdı, anasının söhbətləri ilə böyümüşdü. Öz dediyi kimi əsl kəndçi idi, Rusiyada kənd nəsrinin ən görkəmli nümayəndələrindən biri idi. Əsərlərinə də əyalət danışığının bütün kaloritini gətirmişdi. Eyni dil novatorluğunu biz Sabir Əhmədlinin əsərlərində görürük. İsa Muğannanın da əsərlərinə Şukşində olduğu kimi bir çox filmlər çəkilib. Sabir Əhmədlinin Cəbrayılı düşmən işğalındadır, amma İsmayıl Şıxlı, İsa Muğanna, İsi Məlikzadə kimi yazıçılarımızın kəndlərində onların belə canlı heykəlləri qoyulmalı, muzeyləri yaradılmalıdır. Onların da xatirə günləri keçirilməlidir. Bizdə yazıçıların cəmi üç-dörd ev muzeyi var, halbuki, çağdaş ədəbiyyatımız Səməd Vurğun və Rəsul Rza ilə bitmir.

Bu düşüncələrlə Şukşinin heykəlinə yaxınlaşır, üzündəki qeyri-adi narahatçılığa baxa- baxa, xəyalən əsərləri ilə göz önündə açılan mənzərələrin ruhunu tutuşdurmağa çalışıram. Yadıma düşür ki, Şukşini mənə onun kəndin mənəvi və maddi dəyərlərinə amansız hücumların ağrıları ilə yazılmış hekayələri və əlbəttə, "Qırmızı Başınağacı" ("Krasnaya Kalina") filmi sevdirmişdi. Həmin filmə ilk dəfə 1974-cü ildə Bakıda keçirilən VII Ümumittifaq Kino Festivalında baxmışdım. Film festivalın baş mükafatını almışdı və haqlı olaraq kinematoqrafiyada yeni bir mərhələ sayılırdı.

Yağış gurlaşır və heykəllə vidalaşıb Şukşinin evinə, anası üçün aldığı və anasının tək yaşadığı həmən evə doğru endik. İndi ev səliqəlidir. Pəncərələrin yaşmaqları və taxta qapaqları ağappaq rənglənib. Asfalt yol düz qapıya kimi uzanır. Sağlığında necə olub, bilmirəm. Balaca otaqlar, sadə, kasıbyana mebellər, özünün və anasının otaqları əbədi bir ana-bala mehri içindədir. Bu mehrə bir də rus sobasının bərəkəti qatılıb. Yəqin yazıçı öz halal puluyla kəndin gözəl yerində, seçilən evlərdən birini alanda çox xoşbəxt imiş. Amma bura qayıtmaq ona qismət olmadı. İş-güc anasına tez-tez baş çəkməsinə imkan verməyəndə, həyət-bacaya, saraya, təsərrüfat tikililərinə baxmaq, evi yığışdırmaq yaşlı qadın üçün artıq əziyyətə çevriləndə, anasını şəhərdəki kooperativ evə köçürmək məcburiyyətində qalıb. Evin qabağındakı alma ağacı cırdır, amma arxadakı alma ağacları yaxşı bar gətirib və yağışda yuyulan almaların qızaran yanaqları uzaqdan diqqəti çəkir. Zarafata "Şukşin sağ olsa, bizi meyvəyə qonaq edərdi"- deyirəm. Ejer sözümə bənd imiş kimi, hasarın üstündən uzanıb iki alma qoparır.

V.M. Şukşin bu kəndin kolxozçu gənclər məktəbində oxuyub.1989-cu ildə məktəb yenidən qurularaq Şukşin muzeyinə çevrilmişdir. Təəssüf ki, biz gedəndə bağlı idi və muzeyə baxmaq qismət olmadı. Ancaq o möhtəşəm abidəni, evini və bütün ömrü boyu can atdığı və nə vaxtsa qayıdacağına ümid bəslədiyi yerləri görəndən sonra muzeyə baxmağa ehtiyac da qalmadı.

Altay diyarı ucsuz-bucaqsızdır, zəngindir, gözəllikləri göz oxşayır, amma yamacda oturub bu genişliyə tamaşa edən Şukşin olmasa buralar çox kasıb görünərdi.

Bir azdan, Şukşinlə, Brontayla, bu günlərdə əziyyətimi çəkmiş Ejer və Sergeylə və nəhayət, ən çətini dağlarla vidalaşıb, Novosibirskdən gələn maşına oturub yola düzəldim.

+++

Axşam Elçinin oğlunun kiçik toyu Novosibirskdə yaşayan yerlilərimizlə görüşməyə bir bəhanə olacaqdı, ora tələsirdim... Doğrudan da çox səmimi, gur, səviyyəli bir toy oldu. Düşündüm ki, kim deyir biz Quzey Azərbaycanda on milyonuq. Uzaq Sibirdə də bir uşaq toyunda iki yüzə yaxın həmyerlimiz iştirak edirsə və bu mənzərə getdiyim yerlərin çoxunda təkrar olunursa onda sayımızı dəqiq bilmirik...

Ertəsi gün Novosibirskdə Rus-Azərbaycan Evinə getdik, evin fəalları ilə tanış olduq, gördüyü işlər barədə Novosibirsk vilayət dumasının üzvü, bacarıqlı təşkilatçı, gözəl insan kimi bölgədə böyük hörmət qazanmış Musa Məmmədovun məlumatlarını dinlədik, Dünya Azərbaycanlıları Konqresinin Sibir təmsilçiliyini yaratdıq...

Səfər başa çatdı. Ancaq Altaydan başlanan yollar uzandıqca və yaşadıqca bu səfərlər başa çatmayacaq...

**İyul.**

**Dağlıq Altay- Bakı**